AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)

FAKÜLTƏ: İQTİSADİYYAT VƏ İDARƏETMƏ

Təsdiq edirəm:
"İqtisadiyyat" kafedrasının müdiri:
i.ü.f.d., dos. S.İ.Hümbətova
12.09.2025-ci il

"İNKİŞAF İQTİSADİYYATI" fənni üzrə

İŞÇİ TƏDRİS PROQRAMI

(Sillabus)

**I. Fənn haqqında məlumat**

**Fənnin kodu:** 00411

**Fənnin növü:** əsas

**Tədris ili:** 2025/2026

**Tədris semestri:** payız

**Tədris forması:** Əyani, distant

**Fakültə:** İqtisadiyyat və idarəetmə

**Tədris yükü:** 60 saat (30/30)

**Kredit sayı:** 4

## III. Fənnin təsviri

Bu fənn inkişaf iqtisadiyyatının ən vacib nəzəriyyələrini, faktları və siyasətləri öyrədir, ölkələri mövcud inkişaf kriteriyalarına görə kateqoriyalara ayırmaqla inkişaf səviyyəsinə uyğun iqtisadi siyasət təkliflərini, həmçinin dayanıqlı inkişaf konsepsiyasının iqtisadi, sosial və ekoloji aspektlərini təhlil edir. Bu kursun tədrisi zamanı inkişaf iqtisadiyyatının iqtisadi elmləri sistemində tutduğu yeri və onun iqtisadi nəzəriyyələrinin təkamülündə rolunu, iqtisadi inkişafın formalaşması və fəaliyyət göstərməsinin əsas qanunauyğunluqlarını, bu sahədə xarici və yerli iqtisadi fikrin təkamül və meyllərini, postindustrial iqtisadi sistemlərə keçidi və davamlı inkişaf məqsədlərinin reallaşdırılmasını müəyyən etməyə, habelə iqtisadi fəaliyyətlə təsərrüfat mədəniyyətinin qarşılıqlı əlaqəsini əks etdirməyə xüsusi diqqət yetirilir. Eyni zamanda inkişaf etməkdə olan ölkələr üçün faktların iqtisadi təhlilin metod və yanaşmalarının substantiv mənasına diqqət yetirilir.

## IV. Fənnin məqsədi və vəzifələri

"İnkişaf iqtisadiyyatı" fənninin tədrisinin məqsədi iqtisadi inkişafın ən tanınmış dünya modelləri və strategiyaları əsasında fəaliyyət komponentlərini və mexanizmlərini aşkar etməkdir. Bir sıra əsas modellər üçün nəticələr və sübutlar verilir ki, bu da tələbələrə inkişaf iqtisadiyyatının qurulmasının prinsiplərərini anlamağa imkan verir. Bu fənnin öyrənilməsi tələbələrin müasir inkişafın qlobal modeli haqqında öz anlayışlarının formalaşmasına töhfə verməli, onlara iqtisadi artım və inkişafın həm universal tipli, həm də milli və sahə xüsusiyyətləri nəzərə alınmaqla hazırlanmış nəzəri konsepsiyaları və modelləri ilə bağlı qabiliyyət və bacarıqlarının geniş spektrdə istiqamətləndirilməsinin təkmilləşdirilməsinə imkan verməlidir. Eyni zamanda əsas məqsəd tələbənin inkişaf etməkdə olan ölkələrin müasir iqtisadi problemlərini anlamaq və onların mümkün həlli ilə bağlı müstəqil, əsaslandırılmış mülahizə və nəticələr hazırlamaq bacarığını dəstəkləməkdir.

"İnkişaf iqtisadiyyatı" fənninin tədrisinin qarşısında duran əsas vəzifələr aşağıdakılardır:

- İqtisadi inkişafın fəaliyyət qanunauyğunluqları, cəmiyyətin bir strukturdan digərinə keçidinin məntiqi və mezanizmi haqqında biliklərin dərinləşdirilməsi;
- İqtisadi tərəqqinin ümumi tarixi prosesində müasir iqtisadi transformasiyaların yerini və tarixi əhəmiyyətini dərk etmək;
- Sosial-iqtisadi sistemlərinin inkişaf proseslərinin idarə edilməsi üçün zəruri olan dünyagörüşünün inkişafı və möhkəmlənməsi;
- Konkret iqtisadi vəziyyəti müstəqil təhlil etmək və dünyanın istənilən ölkəsinin iqtisadi inkişaf imkanlarını və perspektivlərini müəyyən etmək bacarıqlarının formalaşdırılması;
- İnkişaf etməkdə olan ölkələrin inkişaf problemlərinin spesifik mahiyyətinin və bazar iqtisadiyyatının ümumi nəzəriyyəsinin "üçüncü dünya" reallıqlarına tətbiqi dərəcəsinin başa düşülməsini təmin etmək;
- Tələbələrə inkişaf etməkdə olan ölkələrin iqtisadi inkişaflarında üzləşdikləri problemlər haqqında sistemli düşünməyi öyrətmək;
- Adekvat analitik metodlardan və statistik mənbələrdən istifadə əsasında qiymət vermək və nəticə çıxarmaq bacarığını öyrətmək.

## V. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

**VI. Öyrənmənin nəticələri:**

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- İnkişaf iqtisadiyyatı anlayışı və ölçülməsi üsulları haqqında
- Müqayisəli iqtisadi inkişaf, inkişaf etmiş və inkişaf edən anlayışları haqqında
- Ənənəvi iqtisadiyyatın inkişafı nəzəriyyələri haqqında
- Müxtəlif inkişaf nəzəriyyələri, inkişafın və geriliyin müasir modelləri haqqında
- İnkişaf strategiyaları haqqında
- Sənayeləşmə strategiyaları haqqında
- İqtisadi inkişafda daxili maliyyələşmə mənbələri və maliyyələşmə haqqında
- İnkişafın xarici maliyyələşdirmə mənbələri haqqında
- İnkişaf prosesində əhali və insan kapitalının rolu haqqında
- Gəlirlərin bölgüsü və inkişaf arasındakı əlaqə haqqında
- Yoxsulluq, bərabərsizlik və inkişaf haqqında
- Texnoloji tərəqqi və inkişafın əlaqəsi haqqında
- İnstitusionalstruktur və inkişafın əlaqəsi haqqında
- Qloballaşma və inkişafın əlaqəsi haqqında
- Xarici ticarət və inkişafın əlaqəsi, maliyyə böhranları və sabitləşmə haqqında

**Bacarmalıdırlar**:

- İnkişaf etməkdə olan ölkələrin iqtisadi inkişaflarında üzləşdikləri problemlər haqqında sistemli düşünməyi
- Adekvat analitik metodlardan və statistik mənbələrdən istifadə əsasında qiymət verməyi və nəticə çıxarmağı
- İnkişafla bağlı müxtəlif nəzəriyyələri təhlil etməyi və münasibət bildirməyi
- İnkişafla bağlı modellər qurmağı
- Konkret iqtisadi vəziyyəti müstəqil təhlil etməyi və dünyanın istənilən ölkəsinin iqtisadi inkişaf imkanlarını və perspektivlərini müəyyən etməyi

**VII. Prerekvizitlər**

Prerekvizit fənlər yoxdur.

**VIII. Fənnin mühazirə mövzuları**

*Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı mövzularda mühazirələr təqdim ediləcək:*

1. İnkişaf itisadiyyatı anlayışı və ölçülməsi üsulları
2. Müqayisəli iqtisadi inkişaf. İnkişaf etmiş və inkişaf edən anlayışları
3. Ənənəvi iqtisadiyyatın inkişaf nəzəriyyələri
4. Müxtəlif inkişaf nəzəriyyələri. İnkişafın və geriliyin müasir modelləri
5. İnkişaf strategiyaları
6. Sənayeləşmə strategiyaları
7. İqtisadi inkişafda daxili maliyyə mənbələri və maliyyələşmə
8. İnkişafın xarici maliyyələşdirmə mənbələri
9. İnkişaf prosesində əhali və insan kapitalı
10. Gəlirlərin bölgüsü və inkişaf
11. Yoxsulluq, bərabərsizlik və inkişaf
12. Texnoloji tərəqqi və inkişaf
13. İnstitusional struktur və inkişaf
14. Qloballaşma və inkişaf
15. Xarici ticarət və inkişaf. Maliyyə böhranları və sabitləşmə

## IX. Fənnin mühazirə mətnləri

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlifnöv digər materiallar elektron formatda universitetin saytında (www.unec.edu.az) "EDUMAN" sistemində və şəxsi kabinetdə yerləşdirilir. Məhz mövzular üzrə müvafiq ədəbiyyatlar isə tələbələrin elektron şəxsi kabinetlərində "digər materiallar" bölümündə yerləşdirilmişdir.

## X. Əsas dərsliklər və əlavə ədəbiyyatlar

### Əsas ədəbiyyat


1. Banerjee, A.V., Duflo, E. (2009). The Experimental Approach to Development Economics. *Annual Review of Economics,* Vol. 1, Iss. 1. P. 151-178.
2. Barrett, C.B. (Ed.). (2007). *Development Economics: Critical Concepts in Development Studies.* 4 volumes. 1st ed. London: Routledge. 1736 p.
3. Chang, H.-J. (Ed.). (2003). *Rethinking development economics.* 1st ed. London – New York: Anthem Press. 554 p.
4. Chenery, H.B., Schultz, T.P., Srinivasan, T.N., Strauss, J., Behrman, J.R. (Eds.). (1988). *Handbook of development economics.* Vol. 4. Amsterdam: Elsevier. 1020 p.
5. De Janvry, A., Sadoulet E. (Eds.). (2021). *Development Economics: Theory and Practice.* London: Routledge. 572 p.
6. Enke, S. (2012). *Economics for development.*Whitefish: Literary Licensing, LLC. 640 p.
7. Ghatak, S. (1995). *Introduction to development economics.*3rd edition. London: Routledge. xv, 400 p.
8. Jhingan, M. L. (2022). *The Economics of Development and Planning*. 40th Revised and Enlarged Edition. Delhi: Vrinda Publications (P) Ltd. 1058 p.
9. SchumpeterJ.A. (2021).*The Theory of Economic Development.*London: Routledge. 254 p. https://doi.org/10.4324/9781003146766
10. Todaro, M.P., Smith, S.C. (2015). *Economic Development.* 12th edition. New York: Pearson. xxvii, 860 p.
11. Мельник, Л.Г. (2013). *Экономика развития: учебник.* Сумы: Университетская книга. 784 с. Режим доступа: https://essuir.sumdu.edu.ua/handle/ 123456789/44461

12. Нуреев, Р.М. (2006). *Рабочая тетрадь по курсу «Экономика развития».* Москва: Норма. 192 с.
13. Нуреев, Р.М. (2019). *Экономика развития: модели становления рыночной экономики.* Учебник для студентов экономических вузов и факультетов Москва: Норма. 640 с. – Режим доступа: http://znanium.com/ catalog/product/1014352
14. Нуреев, Р.М. (2017). *Экономика развития: практикум*. Под ред. Р.М. Нуреева. Москва: Норма: ИНФРА-М. 512 с. – Режим доступа: http://znanium.com/bookread2.php?book=780487

**Əlavə ədəbiyyat:**

1. Banerjee, A., Duflo, E. (2004). Growth Theory Through the Lens of Development Economics. Working Paper 05-01. Cambridge: Massachusetts Institute of Technology, Department of Economics. 92p. https://dspace.mit.edu/ bitstream/handle/1721.1/63678/growththeorythro00bane.pdf?sequence=1
2. Franklin, D., Andrews, J. (Eds.). (2012). *Megachange: The world in 2050* (Vol. 111). London: The Economist and Profile Books. Hoboken, NJ: John Wiley & Sons. xvi, 304 p.
3. The World Bank. (2022). *World Development Report 2022: Finance for an Equitable Recovery.*Washington:WB. xx, 257 p. https://openknowledge. worldbank.org/server/api/core/bitstreams/e1e22749-80c3-50ea-b7e1-8bc332 d0c2ff/content
4. The World Bank. (2002). *Globalization, Growth, and Poverty Building An Inclusive World Economy.* Washington: Oxford University Press. xiv, 174 p.
5. Ward, K. (2012). *The World in 2050. From the Top 30 to the Top 100.* HSBC Global Research. 40 p.
6. Ахапкина, Н.Ю., Никифорова, Л.В. (Ред.). (2018). *Социально-экономические условия перехода к новой модели экономического роста: монография.* Москва: ИНФРА-М. 298 с. Режим доступа: http://znanium. com/catalog. php?bookinfo=926809
7. Яковец, Ю.В. (2011). *Научное наследие Саймона Кузнеца: синтез теорий циклов, эпохальных инноваций и экономического роста.* К 110-летию со дня рождения Нобелевского лауреата по экономике Саймона Кузнеца. Москва: МИСК. 56 с.

*Hər bir mövzu ilə bağlı əlavə ədəbiyyat və oxu materialları mühazirədə qeyd olunur.*

**XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü**

| | **Mövzuların adı** | **Mövzunun əsas məzmunu** | **Ədəbiyyat** |
|---|---|---|---|
| **1** | **Fənnə giriş: İnkişaf iqtisadiyyatı anlayışı və ölçülməsi üsulları** | İnkişaf konsepsiyası haqqında danışılır. Artım və inkişaf anlayışlarının fərqləndirilməsi aparılır. İnkişaf terminologiyası izah olunur. İnkişafın dəyişən mənası verilir. ÜDM və | 1.“İktisadi kalkınma “<br><br>2.“İqtisadi artım”, Vüsal Qasımlı. |

| | | | |
|---|---|---|---|
| | | adambaşına düşən ÜDM əsasında alıcılıq qabiliyyəti pariteti yanaşmasından istifadə etməklə, habelə insan inkişaf indeksi ilə inkişafın ölçülməsindən bəhs olunur. Minilliyin İnkişaf Məqsədləri haqqında qısa məlumat verilir. | Bakı, 2021. Səh.123<br>3.Нуреев, Р.М. (2019). *Экономика развития: модели становления рыночной экономики.* Москва |
| 2 | **Müqayisəli iqtisadi inkişaf. İnkişaf etmiş və inkişaf edən anlayışları** | Zəif inkişafın beynəlxalq inkişaf fərqlərinə görə resurslardan istifadəyə əsasən, sosial və fərdi əsas tələbatların ödənilməsinə əsasən ölçülməsi izah olunur. Zəif inkişaf etmiş ölkələrin xüsusiyyətlərindən danışılı | 1.“İktisadi kalkınma “<br>2.“İqtisadi artım”, Vüsal Qasımlı. Bakı, 2021. Səh.123<br>3.Нуреев, Р.М. (2019). *Экономика развития: модели становления рыночной экономики.* Москва |
| 3 | **Ənənəvi iqtisadiyyatın inkişaf nəzəriyyələri** | Ənənəvi iqtisadiyyatın inkişaf nəzəriyyələri olan “Qapalı çevrə nəzəriyyəsi” və “İnkişaf mərhələləri nəzəriyyəsi” haqqında danışılır | 1.“İktisadi kalkınma “<br>2.“İqtisadi artım”, Vüsal Qasımlı. Bakı, 2021. Səh.123<br>3.Нуреев, Р.М. (2019). *Экономика развития: модели становления рыночной экономики.* Москва |
| 4 | **Müxtəlif inkişaf nəzəriyyələri. İnkişafın və geriliyin müasir modelləri** | Strukturist yanaşmanın mahiyyəti izah olunur, asılılıq metodundan və dualizm nəzəriyyəsindən bəh solunur. Struktur dəyişmə modellərindən danışılır | 1.“İktisadi kalkınma”<br>2.“İqtisadi artım”, Vüsal Qasımlı. Bakı, 2021. Səh.123<br>3.Нуреев, Р.М. (2019). *Экономика развития: модели становления рыночной экономики.* Москва |
| 5 | **İnkişaf strategiyaları** | Balanslandırılmış inkişaf strategiyası və balanslandırılmamış inkişaf strategiyası hərtərəfli izah olunur | 1.“İktisadi kalkınma” |

| | | | |
|---|---|---|---|
| | | | 2.“İqtisadi artım”, Vüsal Qasımlı. Bakı, 2021. Səh.123<br>3.Нуреев, Р.М. (2019). *Экономика развития: модели становления рыночной экономики.* Москва |
| **6** | **Sənayeləşmə strategiyaları** | İdxalın reallaşdırılması əsasında sənayeləşmə strategiyasından və ixraca əsaslanan sənayeləşmə strategiyasından bəhs olunur | 1.“İktisadi kalkınma”<br>2.“İqtisadi artım”, Vüsal Qasımlı. Bakı, 2021. Səh.123<br>3.Нуреев, Р.М. (2019). *Экономика развития: модели становления рыночной экономики.* Москва |
| **7** | **İqtisadi inkişafda daxili maliyyə mənbələri və maliyyələşmə** | Daxili maliyyə resursları – vergilər könüllü fərdi və korporativ qənaət, ev borc alma haqqında məlumat verilir, ölkədaxili resursların mobilləşdirilməsi, inflyasiyanın maliyyələşdirilməsi izah olunur. Maliyyə sektorunun rolundan danışılır | 1.“İktisadi kalkınma”<br>2.“İqtisadi artım”, Vüsal Qasımlı. Bakı, 2021. Səh.123<br>3.Нуреев, Р.М. (2019). *Экономика развития: модели становления рыночной экономики.* Москва |
| **8** | **İnkişafın xarici maliyyə mənbələri və maliyyələşmə** | İnkişafın xarici maliyyələşdirmə mənbələri kimi xarici özəl mülkiyyətdən, xarici bir başa investisiyadan, portfel investisiyalarından, xarici yardım və xarici borclardan bəhs olunur | 1.“İktisadi kalkınma”<br>2.“İqtisadi artım”, Vüsal Qasımlı. Bakı, 2021. Səh.123<br>3.Нуреев, Р.М. (2019). *Экономика развития: модели становления рыночной экономики.* Москва |

| | | | |
|---|---|---|---|
| 9 | **İnkişaf prosesində əhali və insan kapitalı** | Əhali və inkişaf arasında əlaqə öyrənilir, əəhali və gəlir artımı arasındakı asılılıq izah olunur, insan kapitalı və inkişaf məsələlərindən danışılır | 1.“İktisadi kalkınma”<br>2.“İqtisadi artım”, Vüsal Qasımlı. Bakı, 2021. Səh.123<br>3.Нуреев, Р.М. (2019). *Экономика развития: модели становления рыночной экономики.* Москва |
| 10 | **Gəlirlərinbölgüsüvəinkişaf** | Gəlir bölgüsü növləri haqqında məlumat verilir, gəlir bölgüsü nəzəriyyələrinin izahına geniş yer ayrılır, gəlir bölgüsünü təyin edən amillər, gəlir bərabərsizliyinin meyarları göstərilir | 1.“İktisadi kalkınma”<br>2.“İqtisadi artım”, Vüsal Qasımlı. Bakı, 2021. Səh.123<br>3.Нуреев, Р.М. (2019). *Экономика развития: модели становления рыночной экономики.* Москва |
| 11 | **Yoxsulluq, bərabərsizlik və inkişaf** | Yoxsulluqla bağlı anlayışlar – mütləq yoxsulluq, subyektiv yoxsulluq. İnsani yoxsulluq, zəiflik və həssaslıq izah olunur. Yoxsulluğun ölçülməsindən danışılır. Yoxsulluğun səbəbləri göstərilir. Gəlir bölgüsü və yoxsulluq arasındakı asılılıq haqqında məlumat verlir. Yoxsulluqla mübarizə strategiyalarından bəhs olunur. | 1.“İktisadi kalkınma”<br>2.“İqtisadi artım”, Vüsal Qasımlı. Bakı, 2021. Səh.123<br>3.Нуреев, Р.М. (2019). *Экономика развития: модели становления рыночной экономики.* Москва |
| 12 | **Texnoloji tərəqqi və inkişaf** | Texnoloji inkişaf konsepsiyası izah olunur. Texnologiyanın yayılması və ötürülməsi məsələlərindən, texnoloji tərqəqqinin inkişafda əhəmiyyətindən danışılır. Milli innovasiya sistemləri haqqında məlumat verilir | 1.“İktisadi kalkınma”<br>2.“İqtisadi artım”, Vüsal Qasımlı. Bakı, 2021. Səh.123<br>3.Нуреев, Р.М. (2019). *Экономика развития: модели* |

| | | | |
|---|---|---|---|
| | | | *становления рыночной экономики.* Москва |
| 13 | **İnstitusioalstrukturvəinkişaf** | İnstitusional struktur və inkişaf arasındakı əlaqədən bəhs olunur. İnstitusional struktur konsepsiyası izah olunur. İnstitusional iqtisad, korrupsiya, bürokratiya, maliyyə sistemi, məhkəmə sistemi və mülkiyyət məsələlərinə toxunulur | 1.“İktisadi kalkınma” 2.“İqtisadi artım”, Vüsal Qasımlı. Bakı, 2021. Səh.123 3.Нуреев, Р.М. (2019). *Экономика развития: модели становления рыночной экономики.* Москва |
| 14 | **Qloballaşma və inkişaf** | Qloaballaşma və inkişaf arasındakı əlaqə öyrənilir. Qloaballaşmanın tərifi və ölçüləri verilir. İqtisadi qloballaşma və növləri izah olunur. İqtisadi qloballaşmanın qiymətləndirilməsi aparılır | 1.“İktisadi kalkınma” 2.“İqtisadi artım”, Vüsal Qasımlı. Bakı, 2021. Səh.123 3.Нуреев, Р.М. (2019). *Экономика развития: модели становления рыночной экономики.* Москва |
| 15 | **Xariciticarətvəinkişaf. Maliyyəböhranlarıvəsabitləşmə** | İqtisadiinkişafdaəhəmiyyətlibir problem olanxariciaçıqdandanışılır. Xariciticarətməhdudiyyətlərivəinkişaf məsələləriöyrənilir. Xariciticarətməhdudiyyətlərininpisləşməsininsəbəbləri göstərilir. | 1.İktisadi kalkınma” 2.“İqtisadi artım”, Vüsal Qasımlı. Bakı, 2021. Səh.123 3.Нуреев, Р.М. (2019). *Экономика развития: модели становления рыночной экономики.* Москва |

**XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;

2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;

3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;

4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;

5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

6) Tələbənin məşğələdəki hər bir cavabı 20 ballıq sistem üzrə 0-20 bal arasında (maksimum 20 bal olmaqla) qiymətləndirilir. Tələbə aktivlik balını gündəlik olaraq dərsdə aktivlik göstərməklə toplayır. Tələbə hər 10 bal qiymətləndirildikdə yekunda hesabına 5 bal toplayır. Nəticədə tələbə dərslər zamanı ən azı 4 dəfə qiymət almalıdır ki, cəmi 20 bal toplamış olsun.

## XIII. FƏNN ÜZRƏ KURS ISI

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

## XIV. DƏRSƏ DAVAMİYYƏT

Təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Davamiyyət limiti üzrə yuvarlaqlaşdırma (7,5 q/b - 8 q/b) tətbiq edilmir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

## XV. YEKUN IMTAHAN

Fənnin tədrisinin sonunda bir dəfə yekun imtahan təşkil olunur. Tələbənin imtahandakı cavabı 0-50 bal aralığında (maksimum 50 bal) qiymətləndirilə bilər. İmtahan yazılı formada yaxud test qaydasında təşkil olunur. Fənn üzrə imtahan sualları yaxud testlər mühazirə mətnləri və məşğələ dərslərinin məzmununa uyğun olaraq tərtib edilir.

Yekun imtahanda tələbə minimum 17 bal toplamazsa, onda imtahana qədər yığılan ballar toplanmır, tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə bağlı tələbənin hər-hansı şikayəti olarsa, tələbə universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

## XVI. FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ (*Əyani təhsilalma forması üzrə)*

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında fənlərin tədris növünə uyğun olaraq formalaşır.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal

- 8 bal = 4 bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal
- 5 bal = 2,5 bal
- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

**Qeyd:**fənnin tədris növü mühazirə, seminar və labaratoriya olduğu zaman seminar dərsi üzrə bal nisbəti EDUMAN sistemində 10 bal = 2,5 bal nisbətinə uyğun hesaba alınır:

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

**B = (((b1+b2+b3+...+bn)/s)*m)/10**

**Burada,**
B - yekun aktivlik balı;
b - seminar dərslərində alınan müxtəlif ballar;
s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;
10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavrlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrların cavab verməsi üçün imkan yaradır.

Bakalavrlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən “0” bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə “0” bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə.***Hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test və ya yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə test və ya yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə

(alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara onların istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - "əvəzgün" verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən ara qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 30 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Qabiliyyət tələb edən fənlər üzrə ara qiymətləndirmə semestr ərzində yerinə yetirilən və hər biri 5 bal üzərindən qiymətləndirilən 6 fərdi işin (hər ay ərzində 2 iş olmaqla) qiymətləndirilməsi əsasında təmin olunur.

Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Bakalavriat və magistratura səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir. Qiyabi təhsilalma forması üzrə isə davamiyyət səviyyəsindən asılı olaraq maksimum 10 bal verilir.

***Aralıq qiymətləndirmə.***Test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən aralıq qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 50 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda (qabiliyyət tələb edən fənlər istisna olmaqla) keçirilən

aralıq qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Fənlərin tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

***Cari və aralıq qiymətləndirmə.*** Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır.

## İMTAHAN VƏ İMTAHANA GƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ

| 91-100 bal | əla | A |
|---|---|---|
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

***QEYD:***İmtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| İmtahan (final) | 50 | 50 % |
| Seminar (məşğələ) və dərsə davamiyyətin nəticələrinə görə | 50 | 50 % |
| | | |
| **Cəmi:** | **100** | **100 %** |

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi “qeyri-kafi” qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.